**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ**

# QƏRAR

№ 7/12

Bakı şəhəri 20 aprel 2016-cı il

"Azərbaycan Respublikasının Nizami Gəncəvi adına
Qızıl medalı"na namizədlər haqqında

Azərbaycan Respublikasının 16 may 2014-cü il tarixli Qanunu ilə "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" təsis edilmiş, Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2014-cü il tarixli Fərmanı ilə bu medalla təltif etmək səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinə verilmişdir. AMEA Rəyasət Heyətinin 17 fevral 2016-cı il tarixli, 4/6 №-li qərarı ilə Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalına 2016-cı il üçün müsabiqə elan edilmişdir.

Müsabiqədə iştirak etmək üçün irəli sürülmüş alimlər haqqında təqdimatlar, müvafiq sənədlərlə birlikdə AMEA prezidentinin 31 mart 2014-cü il tarixli 42 nömrəli sərəncamı ilə yaradılmış Ekspert Komissiyasına təqdim olunmuşdur. Ekspert Komissiyasının 13 aprel 2016-cı il tarixində keçirilmiş yekun iclasında Nizami Gəncəvi adına Qızıl medala namizədlər seçilmiş və onlar haqqında müvafiq rəylər AMEA-nın Rəyasət Heyətinə təqdim edilmişdir.

AMEA-nın mükafatlar üzrə Ekspert Komissiyasının namizədlər haqqında təqdimatını nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Qeyri-səlis çoxluqlar və məntiq nəzəriyyəsinin yaradılması və inkişafında xidmətlərinə görə Lütfi Zadə (Lütfi Rəhim oğlu Ələsgərzadə) "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" ilə təltif edilsin.
2. Azərbaycanda qaraciyər, öd yolları, mədəaltı vəz xəstəliklərində rekonstruktiv və bərpaedici əməliyyatların təkmilləşdirilməsi və tətbiqi sahəsində nailiyyətlərinə, həmçinin üççildlik "Cərrahi əməliyyatların atlası" kitabının hazırlanmasında

xidmətlərinə görə akademik Böyükkişi Ağa oğlu Ağayev “Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı” ilə təltif edilsin.

3. AMEA-nın İşlər idarəsinə (siyasi elmlər üzrə fəlsəfə doktoru Fətəli Abdullayev) və AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, təltif edilmiş namizədlərin hər birinə 10 000 (on min) manat vəsaitin ödənilməsini təmin etsinlər.
4. Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT